# Azərbaycan investisiyalar üçün cəlbedici ölkədir

## Dünya İqtisadi Forumunun qlobal rəqabətlilik indeksinə görə sıraladığı 140 ölkə arasında Azərbaycan 40-cı yerdə qərarlaşıb

**"Biz şaxələndirmə siyasəti, sərmayələr və müasir infrastrukturun, əlverişli işgüzar mühitin yaradılması sayəsində özümüzü neftin qiymətinin qeyri-sabitliyindən qoruya bilmişik. Azərbaycan xarici sərmayələr üçün açıq ölkədir. Müstəqillik illəri ərzində Azərbaycana 200 milyard ABŞ dollarından çox xarici sərmayə yatırılmışdır... Beləliklə, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkədir. Çünki bizdə çox yaxşı işgüzar və sərmayə mühiti var."**




Dövlətimizin başçısı İlham Əliyevin bu fikirləri ölkəmizdə mövcud sərmayə mühitinə işıq salmaqla yanaşı, Azərbaycanın bu gününə və gələcəyinə olan inamı da təsdiqləyir. Bu günümüzü müstəqilliyimizin ilk illəri ilə müqayisə etdikdə bir daha bu reallığın şahidi oluruq. 1993-cü ildən bəri, yəni ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkədə yaradılan sabitlik, normal biznes mühiti investisiya axınını sürətləndirdi, Azərbaycanı çox qısa zamanda böyük investisiyalar məkanına çevirdi. Azərbaycanla əməkdaşlıqda maraqlı olan dövlətlər, şirkətlər ölkə iqtisadiyyatına yatıracaqları investisiyaların təhlükəsizliyinə tam əmin oldular. Bu faktı da xüsusi qeyd etməliyik ki, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması bu inamı şərtləndirməklə yanaşı, Azərbaycanın malik olduğu təbii resursların təqdimatında əhəmiyyətli rol oynadı. Sonrakı illərdə imzalanan müqavilələr investisiya axınının sürətlənməsinə öz töhfələrini verdilər.

Hər bir sahənin inkişafında iqtisadi tərəqqinin əsas rol oynadığını nəzərə alsaq, sosial-iqtisadi göstəricilərə diqqət yetirməyə böyük zərurət duyulur. Statistik rəqəmlərə baxdıqda hər kəsin nə qədər böyük yol keçdiyimizi görə bildiyini qeyd edən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, son 12 ildə Azərbaycan dünya miqyasında iqtisadi və sosial baxımdan ən sürətlə inkişaf edən ölkə olub. 2004-cü ildən bu günə qədər ümumi daxili məhsul 3,4 dəfə, sənaye istehsalı 2,7 faiz artıb. Cari ilin ötən dövründə iqtisadiyyat 5,7 faiz, qeyri-neft sektoru 9,2 faiz, sənaye istehsalı 4 faiz, kənd təsərrüfatı 7 faiz artıb. Əhalinin pul gəlirləri ənənəvi olaraq inflyasiyanı üstələyir və 6,2 faiz artıb. Müqayisə üçün qeyd edək ki, 2004-cü ildə valyuta ehtiyatımız 1,8 milyard dollar idisə, bu gün 50 milyard dollardan çoxdur. On iki ildə Azərbaycan investisiya cəlbediciliyini qoruyub. Cari ilin ötən dövründə ölkəmizə 12,7 milyard manat sərmayə qoyulmuşdur. Təhlillər əsasında xarici sərmayələrin üstünlük təşkil etdiyi təsdiqlənir. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bu, onu göstərir ki, Azərbaycan investisiyalar üçün çox cəlbedici ölkədir və xarici sərmayələr burada lazımi səviyyədə qorunur. "Azərbaycanın hərtərəfli inkişafına nail olmaq üçün islahatlar regionlar üzrə, proqramlar əsasında həyata keçirilməlidir. Gələcək planlarımızı həyata keçirmək üçün Azərbaycanda ilk növbədə maliyyə intizamı olmalıdır" söyləyən Prezident İlham Əliyev eyni zamanda bildirir ki, ən ucqar kəndlər də iqtisadi inkişafı öz həyat tərzində hiss etməlidir: "Yalnız bütün əhalimiz özünün daha yaxşı yaşadığını hiss etdiyi bir vaxtda, hökumətimiz vəzifəsini yerinə yetirmiş hesab edə bilər. Budur, bizim məqsədimiz-vətəndaşlara eyni şərait yaratmaq." 2004-2008, 2009-2013-cü illər üçün nəzərdə tutulan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının uğurlu icrası 2014-2018-ci illəri əhatə edən Dövlət Proqramının qəbulunu və icrasını şərtləndirdi. Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının uğurlu icrası da ölkənin hərtərəfli inkişafında əhəmiyyətli rol oynayır. Liberal iqtisadi islahatların davam etdirilməsi ilə bütün sahələr üzrə qanunvericilik bazası formalaşdırıldı, təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırıldı. İqtisadiyyatda keçid mərhələsini başa vuran Azərbaycan özünü tam təmin edən ölkəyə çevrilib.

Bu gün nəinki paytaxt, həttə bölgələrimiz də sosial-iqtisadi inkişafı ilə dünyanın diqqətindədir. Dövlətimizin başçısı İlham Əliyevin regional inkişaf proqramlarının icrası ilə yaxından tanış olmaq üçün mütəmadi bölgələrdə səfərdə olması, yeni obyektlərin açılışında və təməlqoyma mərasimlərində iştirakı, insanların problemləri ilə yaxından tanış olması qarşıya qoyulan məqsədlərin yüksək səviyyədə həyata keçirilməsinə stimul olmaqla yanaşı, ictimaiyyətdə böyük ruh yüksəkliyi yaradır. Bu, eyni zamanda, onun təsdiqidir ki, dövlətin siyasətində vətəndaş amili ön planda dayanır. Cənab İlham Əliyevin ayrı-ayrı rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair sərəncamları əsasında dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan vəsaitlərin ayrılması da bu diqqət və qayğının təzahürüdür. Son 12 ildə bir milyon 400 min yeni iş yeri yaradılıb ki, bunun bir milyonu daimi iş yeridir. Təkcə cari ilin ötən dövründə 60 minə yaxın yeni iş yeri açılmışdır ki, onlardan 48 mini daimi iş yeridir. İşsizlik və yoxsulluq probleminin aradan qaldırılması istiqamətində atılan addımların nəticəsidir ki, hazırda işsizlik və yoxsulluq 5 faiz səviyyəsindədir. Dövlətimizin başçısı İlham Əliyev bu inamı ifadə edir ki, qarşıdakı dövr ərzində görüləcək işlər, yeni, infrastruktur layihələrinin, sosial proqramların icrası nəticəsində yoxsulluq səviyyəsi daha da düşəcək və 12 il bundan əvvəl qarşıya qoyulan vəzifə təmin ediləcək- Azərbaycanda yoxsulluq tamamilə aradan götürülməlidir: "Növbəti illərdə biz daha çox şaxələndirməyə diqqət yetirməliyik və bizim hökumətimizin diqqət yönəltdiyi sahələr müasir texnologiya və kənd təsərrüfatıdır. Azərbaycan artıq kosmik sənayeyə malik ölkədir, bizim iki peykimiz var və kosmik sənayenin sürətli inkişafı bizim planlarımızın göstəricisidir. Çünki əhalimiz artır, iqtisadiyyatımız da artmaqdadır. İqtisadiyyat əhalinin artımından daha sürətlə inkişaf etməlidir. Əks təqdirdə, müəyyən mərhələdə biz çətinliklərlə üzləşə bilərik. Bu səbəbdən islahatlar davam etməlidir. Biz heç zaman özümüzü arxayın hiss etməməliyik."

Azərbaycan uğurlu sosial-iqtisadi islahatları ilə beynəlxalq maliyyə qurumlarının hesabatlarında da birinciliyini qorumaqdadır. Dünya İqtisadi Forumunun, Dünya Bankının hesabatlarında islahatçı respublika kimi təcrübəsi təbliğ olunan, MDB ölkələri üzrə lider dövlət statusunu, nüfuzunu qoruyan ölkəmizdə sənaye potensialının gücləndirilməsi, yeni istehsal sahələrinin yaradılması, minlərlə yeni obyektin, milyondan çox yeni iş yerinin açılması, sahibkarlığın inkişafına dövlət dəstəyinin daha da genişləndirilməsi müsbət hal kimi qeyd olunur. Bu günlərdə Dünya İqtisadi Forumunun qlobal rəqabətlilik indeksinə görə sıraladığı 140 ölkə arasında Azərbaycan 40-cı yerdə qərarlaşıb. Bununla da, Azərbaycan MDB ölkələri arasında öz birinciliyini yenə də qoruyub saxlayır. Reytinqə görə Qazaxıstan 42-ci, Rusiya 45-ci, Tacikistan 80-ci, Ermənistan 82-ci, Moldova 84-cü, Qırğızıstan isə 102-ci sırada qərarlaşıb. Sıralamada ilk üçlükdə isə müvafiq olaraq İsveçrə, Sinqapur və ABŞ yer alıb. Beləliklə, Azərbaycan yenə də dünyanın ən rəqabətli 40 iqtisadiyyatı arasındadır. Rəqabət reytinqinin formalaşmasında və onun davamlı olaraq yaxşılaşmasında ölkədəki makroiqtisadi sabitlik çox mühüm rol oynayır. Artıq bir neçə ildir ki, Azərbaycan həmin reytinqin tərkibində makroiqtisadi sabitlik üzrə birinci onluqdadır. Onu da nəzərə almaq lazımdır ki, bu nailiyyətlər dünyada dərin iqtisadi və maliyyə böhranının davam etdiyi, xüsusən Avrasiya məkanında bu böhranın daha da ciddi formalar aldığı bir dövrdə əldə edilib. Bu uğur bir daha belə bir reallığı ortaya qoyur ki, Azərbaycan iqtisadiyyatını düzgün əsaslar üzərində qurub. İqtisadi tərəqqinin qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoyan dövlətimizin başçısı İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atdığı addımlar uğurlara yol açmaqla beynəlxalq səviyyədə təqdir olunur. Keçirilən beynəlxalq tədbirlərdə Azərbaycanın bütün dünyaya nümunə ola biləcək yeni geoiqtisadi regional güc mərkəzi modeli yaratdığı xüsusi vurğulanır. Bildirilir ki, 20 il Azərbaycanla eyni səviyyədə qərarlaşan postsovet ölkələri indi iqtisadi inkişaf səviyyəsinə görə respublikamızla rəqabətdə çətinlik çəkirlər. Hazırda Azərbaycan kredit reytinqinin səviyyəsinə görə MDB məkanında ən irəlidə gedən ölkələrdəndir. Dövlətimizin başçısı İlham Əliyev hər bir çıxışında iqtisadiyyatın inkişafında neft-qaz amilinin rolunu önə çəkərək, bu məqsədi də açıqlayır ki, enerji sektorundan asılılıq minimuma endirilməlidir.

Cari ilin arxada qalan dövründə ölkəmizin ayrı-ayrı sahələrdə qazandığı uğurlara diqqət yetirmək kifayətdir ki, ümumi il haqqında aydın təsəvvür yaransın. Cənab İlham Əliyev bu inamı ifadə edir ki, 2015-ci il də Azərbaycanın tarixində uğurlu il kimi qalacaq. Dünya Bankının "Doing Business 2015" hesabatında ölkəmizin ən çox islahat həyata keçirən ilk 10 ölkə sırasında qərarlaşması da Azərbaycanın uğurlarının davamlılığını təsdiqləyir. Dünya Bankı hər il 189 ölkədə biznes mühitinə dair qiymətləndirmə hesabatı hazırlayır və dərc edir. Azərbaycanın bu hesabatlarda daim öz liderliyini qoruması həyata keçirilən biri-birindən əhəmiyyətli tədbirlərin uğurlu nəticəsidir. Qurumun bu günlərdə açıqladığı hesabatda Azərbaycanın yoxsulluqla mübarizə, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atdığı addımlar yüksək qiymətləndirilir, əldə olunan uğurlar əsaslı şəkildə qeyd edilir. Uğurlarımız bir daha bu reallığı təsdiqləyir ki, inkişaf, tərəqqi, yeniləşmə, müasirləşmə, bir sözlə, davamlı inkişaf dövlət siyasətinin əsasını təşkil edir, yeni-yeni hədəflərə çatmaq üçün göstərilən səylər və əldə olunan göstəricilər ölkəmizin hərtərəfli inkişafını daha da sürətləndirir. Öz təbii resurslarından səmərəli istifadə etməklə yeni-yeni layihələrin reallığa çevrilməsinə nail olan Azərbaycanın iqtisadi imkanlarının genişlənməsi onun beynəlxalq aləmdə yeri və rolunun möhkəmlənməsini, ölkəmizə inamın daha da artmasını şərtləndirir.

**Yeganə Əliyeva,**
***"İki sahil"***